**SABİR QULİYEV**

# İNSANLIQ YAŞAYIR

*(III kitab)*

qanun nəşriyyatı

# ÖN SÖZ

"İnsanlıq yaşayır" adlanan üçüncü kitaba ön sözün yazılması müəllif Sabir Quliyevin istəyi ilə yenə də mənə təklif olundu. Birinci və ikinci kitabların əlyazmalarını oxuyub ön söz yazdığım üçün müəllifin məqsədi, yazı üslubu mənə tanış idi. Müəllifin üçüncü kitabının əlyazmasını oxuyarkən əmin oldum ki, bu kitab özünə daha çox oxucu cəlb edə biləcəkdir.

Çünki, "İnsanlıq yaşayır" adlanan üçüncü kitab daha dolğun, əhatəli və müxtəlif maraqlı mövzularla zəngindir.

Odur ki, maraq hissi ilə kitabın əlyazmasını sonacan diqqətlə oxudum.

Bilirəm ki, kitabın dəyərini, heç şübhəsiz, hörmətli oxucular verəcəkdir. Kitabın ilk 1-ci fəslində müdriklərin çoxsaylı qızıl kəlamlarından seçmələr yer tutur. Bu hikmətli kəlamlar 1-ci və 2-ci kitablarda da göstərilmişdir. Lakin 3-cü kitabda daha geniş həcmdə hikmətli kəlamlar seçilmişdir. Bu qızıl kəlamlar şübhəsiz hər bir oxucunun diqqətini cəlb edəcək və müəllifin digər mövzulu yazılarına da marağı artıracaqdır.

Daha sonra kitabda respublikamızın, eləcə də Şəmkir rayonunun ölkədə tanınan rəhbərlər (Birinci şəxslər) haqqında geniş coğrafiyada tanınmış alimlərimiz, incəsənət xadimlərimiz göstərilmişdir.

Kitabda, həmçinin Şəmkir rayonu üzrə müqəddəs, unudulmayacaq şəhidlərimizin adı, soyadı və atalarının adı göstərilmişdir.

Müəllif 50 nəfərdən çox Azərbaycan şairlərinin yaradıcılığından yadda qalan şer nümunələrini də göstərmişdir.

Rayon miqyasında tanınan ziyalıları, müəllim və həkimləri digər ictimai fəalların adlarını da kitaba daxil etmişdir.

Müəllif öz yaradıcılıq ənənəsinə sadiq qalaraq bir sıra lətifələrlə yanaşı, müxtəlif təhsil və iş dövrlərinə aid hekayələri də yazmışdır.

Növbəti kitaba dəyər verilməsi üçün, hörmətli oxucuların rəy və təkliflərinə güvənirəm.

Son olaraq zəhmətkeş müəllifə bir daha cansağlığı və bol uğurlar arzulayıram.

*Nəcabət Nərimanova*

*Cahangir Rüstəmov adına*
*Şəmkir şəhər orta məktəbinin müəllimi.*

# MÜƏLLİFDƏN

Hörmətli oxucular!

Sizinlə 3-cü dəfə yenidən görüşə gəlirəm. Artıq 80 yaşı da haqlamışam.

Ömür kitablarımı vərəqləyib bir daha əmin oldum ki, yaxşılıq, xeyirxahlıq, mərhəmət, yaxşıya dəyər vermək, xoş ünsiyyət, ədəbli və tərbiyəli davranış və s. əsl insanlıq əyarıdır.

Kitabın adı da bu fikirlərimdən qaynaqlanmışdır. "İnsanlıq yaşayır" adının olmasını seçimi etdim.

Kitaba daxil etdiyim yazıları təhlil etməklə sizləri yormaq istəmirəm, sadəcə olaraq inanıram ki, kitabı vərəqlədikcə sizin xatırlayacağınız və yaxud sizin informasiya ehtiyacınızı ödəyəcək məlumatları əldə edə biləcəksiniz.

Kitabın bu giriş hissəsində söylədiklərimin məntiqi nəticəsi ondan ibarətdir ki, hər bir insanda insanlıq hissinin itməsinə, ölməsinə imkan verməyək. Qoy hər bir insanda gözəl olan insanlıq hissi əbədi yaşasın.

Bəzən ayrı-ayrı insanlarda insanlığa uyğun gəlməyən neqativ hallara rast gələndə ruhdan düşməyin. Əmin olun ki, gec-tez insanlıq mütləq qalib gələcəkdir.

Müxtəlif olduğum "Ömür yolunun xatirələri", "Xatirələr aləmində" və "İnsanlıq yaşayır" kitablarım Sizin marağınıza uyğun gələrsə, ancaq sevincimə səbəb ola bilər.

Odur ki, hər oxucuya sağlamlıq, kitabı oxumaq üçün səbir, təmkin arzulayıram.

Tövsiyəm odur ki, insanlığa dəyər verin, qoruyun və insanlığı hər şeydən uca tutun.

# I FƏSİL

# MÜDRİK KƏLAMLAR...



Hörmətli oxucu!

Öncə çap olunmuş “Ömür yolumun xatirələri” və Xatirələr aləmində” kitablarda bir çox hikmətli kəlamlardan nümunələr vermişdim.

Bu ənənəyə sadiq qalaraq növbəti üçüncü “İnsanlıq yaşayır” kitabına da müdrik kəlamlara yer ayrılmasını zəruri hesab etdim.

Eramızdan əvvəl və sonra yaşayıb-yaratmış müdrik insanların hikmətli kəlamlarından nümunələri seçib, əvvəlki kitablara daxil etmişdim.

Ömrüm boyu məna tutumlu, maraqlı və diqqətçəkən hər hansı hikmətli kəlamı oxuduqda və ya kimdənsə eşitdikdə düşünmüşəm, heyrətlə təhlil edib sevinmişəm və müntəzəm olaraq qeydə almışam.

Çox sadə bir deyimlə böyük məna kəsb edən hikmətli söz müəllifinin parlaq zəkasına heyran olmuşam.

Odur ki, 200 nəfərə yaxın dahi müdriklərin 350-dən çox hikmətli kəlamlarını seçib yenidən hörmətli oxuculara təqdim edirəm.

Əziz və hörmətli oxucu!

Müdriklərin hikmətli kəlamları sadə deyim tərzinə, lakonik ifadə üslubuna, böyük təsir gücünə, geniş əqli potensiala və dərin məzmuna malikdir.

Belə müdrik kəlamlar, heç şübhəsiz, hər bir oxucuda yüksək mənəvi, əxlaqi keyfiyyətlər aşılayacaqdır.

Əminliklə deyirəm ki, dərin məna tutumlu hikmətli kəlamlar hər bir oxucunun ictimai-siyasi dünyagörüşünü hərtərəfli inkişaf etdirir və onun əqlini, zəkasını daha da zənginləşdirir.

Müdrik insanların hikmətli kəlamlarının gözəl ifadəsi hər bir oxucuya yaxşı mənada təsir edir və heyrət doğurur.

Odur ki, hər kəsin qəlbinə işıq saçan hikmətli kəlamlar qədim dövrlərdən bu günümüzə qədər sınaqlardan çıxa-çıxa yazılı və şifahi ədəbiyyatımızda öz layiqli yerini tutur.

Hikmətli kəlamlar zaman-zaman insanları heyrətləndirmiş, sevindirmiş, düz yola yönəltmiş, şüurda qəlbdə yaşamışdır.

Dərin məna tutumlu hikmətli kəlamlar daima dillər əzbəri olmuş, öz dəyərini, təravətini qoruyub saxlamışdır.

Dünya xalqlarının ədəbiyyatında, fəlsəfəsində hikmətli kəlamların misilsiz rolu və təsiri olmuşdur.

Müdriklərin hikmətli kəlamları daimi olaraq mənəviyyatımıza işıq saçmış və bizi kamilləşdirməkdə davam edir.

Hikmətli, müdrik kəlamlar müəllifi olmuş azərbaycanlı mütəfəkkirlərimizdən Nizami Gəncəvi (1141-1209), Məhəmməd Füzuli (1494-1556), İmadəddin Nəsimi (1369-1417), Molla Pənah Vaqif (1717-1797), Mirzə Fətəli Axundzadə (1812-1878), Səməd Vurğun (1906-1956), Məhəmmədhüseyn Şəhriyar (1906-1988), Seyid Əzim Şirvani (1835-1888), Mirzə

Ələkbər Sabir (1862-1911), Hüseyn Cavid (1882-1941), Əhməd Cavad (1892-1937), Əliağa Vahid (1895-1965), Bəxtiyar Vahabzadə (1925-2009) və s.

Dünyaşöhrətli, görkəmli filosoflardan Sokrat (e.ə.469-399), Aristotel (e.ə.384-322), Platon (e.ə. 427-347), Bekan Frensis (1561-1626), Ömər Xəyyam (1048-1131), İbn Sina (980-1037), Leonardo da Vinci (1452-1519), Kant İmmanuel (1724-1804), Demokrit (e.ə. 460-370), Pifaqor (e.ə. 460-377), Lüdviq Feyerbax (1804-1872) və s.

Mütəfəkkir şair və yazıçılardan Onore de Balzak (1799-1850), Puşkin (1799-1837), Corc Bayron (1788-1824), Vilyam Şekspir (1564-1616), Nazim Hikmət (1902-1963), Aleksandr Düma (1824-1870), Cəlaləddin Rumi (1207-1272), F.M.Dostoyevski (1821-1881), Viktor Hüqo (1802-1885), L.N.Tolstoy (1828-1910), Mark Tven (1835-1910), Cek London (1876-1916) və s.

Məşhur ixtiraçı alimlərdən: Lütfi-Zadə (1921-2017), Albert Eynşteyn (1879-1955), Nəsrəddin Tusi (1201-1274) və s.

Görkəmli siyasi dövlət xadimlərindən Şah İsmayıl Xətai (1486-1524), Karl Marks (1818-1883), Fridrix Engels (1820-1895), V.İ.Lenin (1870-1924), İ.V.Stalin (1879-1953), Mustafa Kamal Atatürk (1881-1932), Heydər Əliyev (1923-2003), Rəcəb Tayyib Ərdoğan (1954), İlham Əliyev (1961) və s. tarixi şəxsiyyətləri fakt olaraq iftixar hissi ilə göstərmək olar.

Adlarını qeyd etdiyim və etmədiyim bir çox dahi mütəfəkkirlər müasir dünyamız və gələcəyimiz üçün dərin fəlsəfi məna tutumlu, çox dəyərli hikmətli kəlamlar və ifadələri bizlər üçün yadigar qoymuşlar. Müdrik insanların hikmətli kəlamlarını təkrar-təkrar oxuyub, öyrəndikcə özümüz də kamilləşirik, dünyagörüşümüz genişlənir və zənginləşir. Odur ki, müdriklərin qızıl kəlamlarını 3-cü kitaba da daxil etməyi zəruri hesab etdim.

Minlərlə hikmətli söz çələngindən sizlər üçün seçdiyim kəlamları oxuyub-öyrəndikcə əmin olacaqsınız ki, insanlıq daima yaşayacaqdır.

# I

## Elm-bilik, ədəbiyyat, incəsənət haqqında

Mütaliə insanları bilikli, söhbətcil və hazırcavab edir.

*F.Bekon*

Kainatda təsadüfə rast gəlinməz.
Bilik düz tətbiq olunanda xeyir, səhv tətbiq olunanda ziyan verir.

*Sokrat*

Qəlbinin səni apardığı yerə get, beynini də özünlə aparmağı unutma.

*A.Adler*

Hər şey çox olunca ucuzlaşır, ədəb bunun əksinədir, o çoxaldıqca dəyəri artır.

*Şəms Təbrizi*

Nə qədər yaşayırsan, öyrən, gözləmə ki, qocalıq gələndə sənə kamal gətirəcək.

*Solan.*

Nəyi isə oxuyan adam heç bir şeyi oxumayan adamdan yüksəkdə durur.

*V.Q.Belinski*

Elə adamlar axtarın ki, onlarla söhbət yaxşı kitaba bərabər olsun, elə kitablar da axtarın ki, mütaliəsi filosoflarla söhbətə dəysin.

*Ə.H.Bəhmənyar*

Yaxşı kitablar oxumaq keçmiş əsrlərin ağıllı adamları ilə söhbət etmək deməkdir.

*R.Dekart*

Qüvvət elimdədir, başqa cür heç kəs
Heç kəsə üstünlük eyləyə bilməz.
Hər uca rütbədən, biliniz fəqət
Alimin rütbəsi ucadır əlbət.

*Nizami Gəncəvi*

Ədəbsizliyin başladığı yerdə ədəbiyyat bitər.

*Mehmet Akif Ersoy*

Az bildiyini başa düşmək üçün çoxlu oxumaq lazımdır.

*N.Monten*

Elə bir kitab yoxdur ki, insan ondan yaxşı bir şey öyrənə bilməsin.

*İ.V.Göte*

Elmi olub, ağlı olmayan adama elm əziyyət verər.

*Nüşirəvan Adil*

Təhsil xəzinədir, əmək onun açarı.

*Seyid Əzim Şirvani.*

Başqalarını tanıyan arifdir özünü tanıyan isə müdrikdir.

*Lao Tzu*